Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dağlıq Qarabağda erməni irsinin izlərinin birmənalı yoxluğu mübahisəsiz fakt kimi...

## *Qasım Hacıyev: "Bütün dünya tarixçiləri bilir ki, ermənilər Dağlıq Qarabağa, eləcə də Azərbaycanın digər ərazilərinə "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra köçürülüblər"*

**Dağlıq Qarabağı və ətraf rayonları hələ də işğalda saxlayan Ermənistan qəsb etdikləri torpaqlarımızda maddi mədəniyyət abidələrini dağıdır, dağıtmadığını isə "erməni mədəni irsi" kimi qələmə verir. Müxtəlif səviyyələrdə Azərbaycan tərəfi Dağlıq Qarabağda ermənilərə aid heç bir tarixi irs olmadığını dəfələrlə bəyan edib.**

Azərbaycan Prezidenti İlham Əliyev də keçirdiyi görüşlərdə ermənilərin Azərbaycan xalqının tarixi mədəni irsini məhv etdiyini qeyd edib. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrində Prezident İlham Əliyev bir daha Dağlıq Qarabağda ermənilərin hər hansı bir tarixi irsinin olmadığını bildirdi. "Dağlıq Qarabağda heç bir erməni tarixi irsi yoxdur" - deyə ölkə başçımız bir daha Ermənistanı dünya qarşısında pis vəziyyətə qoyub.

Dövlət başçısının fikirlərini şərh edən tarixçilər bildirirlər ki, onun Dağlıq Qarabağın tarixi ilə bağlı səsləndirdiyi hər bir fikir ciddi tarixi əsaslara söykənib.

Tarixçilər vurğulayırlar ki, işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlarda bir dənə də olsa ermənilərə aid tarixi irs nümunəsi yoxdur. Azərbaycan torpaqlarını işğal etdikdən sonra buradakı qədim alban-xristian tarixi irsini mənimsəyən və "erməni irsi" kimi təqdim edən Ermənistanın böyük bir cinayətə imza atdığını deyən tarixçilər bildirirlər ki, "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra Çar Rusiyası tərəfindən Azərbaycan torpaqlarına köçürülən ermənilər Dağlıq Qarabağda da məskunlaşdırılıblar. Ermənilər buradakı alban-xristian abidələrinə, tarixi irsinə sahib çıxmağa başlayıblar. Qarabağdakı qədim alban kilsəsinə də sahiblənən ermənilər burada tamamilə alban mədəniyyətinin izlərinin silinməsinə nail olublar.

Tarixçilər qeyd edirlər ki, bu gün erməni işğalında olan Dağlıq Qarabağda Azərbaycan xalqının böyük tarixi irsi ermənilər tərəfindən məhv edilib.

1988-ci ildən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər qiymətli mədəni sərvətlərimizi də itirdik. Bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından köçkün düşdü. Qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində maddi mədəniyyət nümunələrimiz məhv edilir. Təsadüf üzündən məhv edilməmiş abidələr isə İran və ya Qafqaz mədəniyyət abidələri kimi təqdim olunur. Hamıya yaxşı məlumdur ki, Cənubi Qafqaz, o cümlədən, indiki Ermənistan, işğalçı müharibələr hesabına böyüdüyü torpaqlar erməni adlanan etnosun vətəni deyil. Tarix göstərir ki, erməni tayfaları Cənubi Qafqazdan çox uzaqlarda yaşamışlar. XIX əsrin erməni tədqiqatçıları belə hesab edirlər ki, ermənilər qaraçılardan, daha dəqiq "qəddar ürəkli", ayk (xayk) adlandırılan köçəri tayfadan əmələ gəliblər. Bir sıra Avropa və Azərbaycan tarixçilərinin dediklərinə görə, onların ilk vətəni Balkanlar olub, xristianlığı da məhz orada qəbul ediblər. Tarix boyu təcavüzkar və hiyləgər ermənilər özlərini məzlum xalq kimi qələmə verərək dünyanın diqqətini çəkmək istəyiblər. Lakin həqiqəti gizlətmək, pərdələmək o qədər də asan deyil. Ermənilərin təcavüzkarlığı bir çox alimin, o cümlədən, Strabonun da diqqətindən yayınmayıb. Ermənilər işğal etdikləri ərazilərdə, bir qayda olaraq, o xalqın mədəniyyət abidələrini ya yox edir, ya da "qazıntılar" apararaq əsil yazıları dəyişir və erməniləşdirirlər. Bu haqda məşhur gürcü şairi İlya Çavçavadze də yazmışdı: "Ermənilər tərəfindən gürcü kilsələrində gürcü yazılarının pozulması, tikinti daşlarının çıxarılıb əvəzinə erməni yazıları olan daşların qoyulması haqda sübut olunmuş bir çox fakt var".

Tanınmış rus tarixçi-alimi V.Veliçkonun kitabında da ermənilər tərəfindən gürcü və alban abidələrində əsil yazıların pozulması və dəyişdirilərək mənimsənilməsi faktları verilir. O yazır ki, erməni himayədarları Ermənistanın yeni tarixini yazmaq və kiçik xalqını yüksəltmək üçün qonşu xalqların daha zəngin tarixinə kölgə salmaq istəyirlər. Köhnə tarix bu gün də təkrar olunur. Təkcə Şuşa şəhərindəki 199 memarlıq abidəsindən çoxu, o cümlədən, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, böyük Azərbaycan şairi M.P.Vaqifin məqbərəsi, XVIII-XIX əsrlərə aid yaşayış evləri və s. abidələr dağıdılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev qeyd etdi ki, Dağlıq Qarabağda ermənilərin heç bir tarixi irsinin olmaması böyük həqiqətdir və bunu ermənilər özləri də yaxşı bilirlər. Ermənilər Azərbaycan mədəniyyətinə, tarixinə hər zaman qeyri-obyektiv yanaşıblar. "Cənab Prezidentin çıxışına sonacan baxdım və onun Qarabağ tarixi ilə bağlı söylədiyi faktlar qarşısında Paşinyan danışmağa bir söz tapa bilmədi. Siyasi liderimizin, dövlət başçımızın erməni baş naziri tarixi faktlarla susdurması bizi qürurlandırdı.

Məsələ burasındadır ki, ermənilərin Qafqaza heç bir aidiyyəti yoxdur. Bilirsiniz ki, XX əsrin əvvəllərinə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb və həmin dövrə qədər ermənilər bu ərazilərdə kompakt yaşamayıblar. Ermənilər "din xadimi", "tacir", qaraçı şəklində tək-tük o ölkədə, bu ölkədə yaşasalar da, onlar heç yerdə kompakt şəkildə yaşamayıblar. Onlar Azərbaycana kütləvi şəkildə sonradan köçürülüblər. Ermənilər tarixən Cənubi Qafqazda olmayıblar. Ermənilərin yaratdığı "dövlət" Dəclə-Fərat çayları yaxınlığında Kilikiyada olub. Onlar da ora Egey dənizinin sahillərindən gəliblər və iki yerdə məskən salıblar. Bu dövlət də satraplıq olub. Bununla da adını qoyublar ki, guya "Böyük Ermənistan" olub. Halbuki, ermənilərin fəxr etdikləri və "böyük erməni çarı" kimi təqdim etdikləri Tiqranın özü erməni olmayıb, o, parfiyalıdır, hətta onu tarixi mənbələrdə fars da adlandırırlar. Ermənilər harada qədim nə varsa, onu mənimsəmək istəyiblər. Məsələn, Armeniya dövlətini də özlərinə çıxırlar. Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra onlar alban mədəniyyətinə sahib çıxıblar. Alban abidələrini, alban tarixi irsini saxtalaşdıraraq "bu abidələr bizimdir" deyirlər. Amma konkret olaraq onu demək olar ki. Əhəmənilər dövründən yaranmış kiçik satraplıqlar Ön Asiyada yerləşib. Ondan başqa onların dövləti olmayıb. Cənubi Qafqazda ermənilərin heç bir dövləti olmayıb, bunu bütün dünya bilir. Azərbaycan ərazisinə ermənilər kütləvi şəkildə "Gülüstan" və "Türkmənçay" müqaviləsindən sonra köçürülüblər. Bunu Prezidentimiz də dedi. Bütün dünya tarixçiləri bilir ki, ermənilər Dağlıq Qarabağa, eləcə də Azərbaycanın digər ərazilərinə "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra köçürülüb və bu halda Dağlıq Qarabağda onların tarixi irsi necə formalaşa bilər? Həmin müqavilələrdən sonra 40 min İrandan, 90 min nəfər isə Türkiyədən köçürülüb. İrəvan şəhəri də onlara şərtlə verildi ki, onlar sakit otursunlar. Verilən ərazi də 9,8 min kvadratkilometr idi. Ondan sonra onlar Rusiyanın dəstəyilə həmin ərazini artırıb 28 min kvadratkilometr etdilər. Beləliklə, həm Göyçəni, həm Zəngəzuru birləşdirib Ermənistan Respublikasını yaratdılar. Təbii ki, böyük dövlətlər də onlara kömək edirdilər. Dağlıq Qarabağ mədəniyyəti isə heç vaxt erməni mədəniyyəti ola bilməz. Çünki Dağlıq Qarabağ əhalisinin yaşadığı məişət şəraiti, yaratdığı abidələr, buradakı arxeoloji abidələr və digər məsələlər onu göstərir ki, Dağlıq Qarabağ Azərbaycan türklərinin tarixi torpağıdır. Burada heç bir erməni izi olmayıb. Burada bir dənə də olsun qədim abidədə erməni izlərinə rast gəlmək mümkün deyil. Çünki ermənilər bu torpaqlara gəlmədirlər".

### *"Burada bir dənə də olsun qədim abidədə erməni izlərinə rast gəlmək mümkün deyil"*

Q.Hacıyev ermənilərin iki əsr bundan əvvəl Dağlıq Qarabağa köçürülməsini sübut edən Marağa abidəsini də xatırlatdı. O vurğuladı ki, bu gün ermənilər Cənubi Qafqazın aborigen xalqlarından olduqlarını iddia etsələr də, tarixi faktlar bunun əksini göstərir. Ermənilərin İran və Türkiyə ərazisindən Azərbaycan torpaqlarına köçürülməsini təsdiqləyən yüzlərlə fakt olduğunu deyən müsahibimiz vurğuladı ki, onların Dağlıq Qarabağa köçürülməsini sübut edən faktlardan biri 1978-ci ildə Ağdərədə ucaldılan abidədir. Q.Hacıyev qeyd etdi ki, bu abidə ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyulmuşdu. O dedi ki, bu abidə "Marağa-150" abidəsi kimi tanınır, sonradan elə ermənilərin özləri tərəfindən dağıdılıb. "Bu abidənin açılış mərasimində çıxış edən erməni ideoloqları bildirirdilər ki, ermənilər bu torpağa 1828-ci ildə, "Türkmənçay" müqaviləsindən sonra köçürülüblər və 1978-ci ildə onların bu ərazilərə köçürülməsinin 150 ili tamam olub" - deyə müsahibimiz qeyd etdi.

Qeyd edək ki, Azərbaycan Respublikasının Ağdərə rayonunun Marağa kəndinə İrandan ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə ucaldılmış abidə simvolik məna daşıyır.

Tarixçilər bildirirlər ki, üzərində ermənicə "Marağa-150" yazılmış abidə 1988-ci ildə ermənilərin Azərbaycana ərazi iddiaları başlayanda dağıdılıb. Onlar vurğulayırlar ki, "Marağa-150" dağıntıya məruz qalmasına baxmayaraq, hazırda qalıqları mövcuddur və Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olan ərazidə yerləşir. Abidənin yerləşdiyi yer hazırkı Şıxarx qəsəbəsi ilə Tərtər şəhəri arasında 20 dəqiqəlik məsafə var. Bu abidənin ermənilər tərəfindən dağıdılmasının səbəbi onların özlərinə yeni saxta tarix yaratmaq iddiasından irəli gəlir. Alimlər bildirirlər ki, ermənilərin Qarabağa köçürülməsini sübut edən tarixi mənbələrdən biri "Marağa-150" abidəsidir ki, o abidə erməni saxtakarlığını bütün dünyada ifşa edə bilər.

Buradan da açıq görünür ki, ermənilər Dağlıq Qarabağa təxminən 200 il əvvəl köçürülüblər. Bu da ermənilərin burada heç bir tarixi irsinin olmadığını əsaslı şəkildə sübut edir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**